*UOT 37.01*

***Əsmət İdris qızı İsmayılxanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-1151-4440*
*E-mail:a.ismayilxanova@gmail.com*
*https://doi.org/10.69682/arti.2026.93(3).128-132*

# YENİYETMƏ VƏ GƏNCLƏRDƏ MİLLI-MƏNLİK ŞÜURUNUN FORMALAŞDIRILMASI

***Asmat Idris Ismayilkhanova***
*associate professor at Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

# SHAPING NATIONAL SELF-CONSCIOUSNESS AMONG TEENAGERS AND YOUTH

***Асмет Идрис Исмаилханова***
*доцент Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

# ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ У ПОДРОСТКОВ И МОЛОДЁЖИ

**Xülasə.** Müəllif yazdığı məqaləni yeniyetmə və gənclərin milli mənlik şüurunun formalaşdırılması kimi mühüm məsələyə həsr etmişdir. Müəllif qeyd edir ki, öz xalqının, millətinin dilini, mədəniyyətini, tarixini bilməyən şəxs milli mənlik şüurundan məhrumdur. Humanist ideyalar təbliğ edən təhsil sistemimizdə vətəndaşlıq tərbiyəsi, insan hüquq və azadlıqlarına hörmət, ətraf mühitə, təbiətə qayğılı münasibət, vətəninə, ailəsinə məhəbbət, milli adət və ənənələrimizə hörmət tərbiyə prosesinin əsasını təşkil edir. Yeniyetmə və gənclərin milli mənlik şüurunun formalaşmasında tarixi şəxsiyyətlər, mütəfəkkirlər, bilim adamları haqqında onlara verilən məlumatlar çox güclü rol oynayır. O, qeyd etmişdir ki, tutduğu mövqeyindən, vəzifəsindən asılı olmayaraq milli mənlik şüuru hər insana xas olan müsbət əxlaqi keyfiyyətdir. Milli mənlik şüuru həm insanın daxili xarakterini, həm adamlara, həm də cəmiyyətə olan münasibətini özündə ehtiva edir.
***Açar sözlər**: qloballaşma, adət-ənənə, milli mənlik şüuru, mənəviyyat, salnamə, dəyərlər, vətənpərvərlik, vətəndaşlıq, sağlam həyat tərzi*

**Abstract.** The article focuses on the significance of shaping national self-consciousness among teenagers and youth. The author notes that a person unaware of the language, culture and history of their own people and nation is deprived of national self-consciousness. Within our education system, which promotes humanistic ideas, civic education, respect for human rights and freedoms, a caring attitude towards the environment and nature, love for one's homeland and family, and respect for national customs and traditions form the foundation of the educational process. Information provided to teenagers and youth about historical figures, thinkers and scholars plays a very positive role in the formation of their national self-consciousness. The author emphasises that, regardless of one's position or occupation, national self-consciousness is a positive moral quality inherent in every individual. National self-consciousness encompasses both a person's inner character and their attitude towards other people and society as a whole.
***Keywords:** globalisation, customs and traditions, national self-consciousness, spirituality, chronicle, values, patriotism, citizenship, healthy lifestyle*

**Аннотация.** Автор посвятил написанную им статью важной проблеме формирования национального самосознания подростков и молодежи. В статье отмечается, что человек, не знающий язык, культуру и историю своего народа и нации, лишён национального самосознания. В нашей образова-

тельной системе, пропагандирующей гуманистические идеи, основой воспитательного процесса являются гражданское воспитание, уважение к правам и свободам человека, бережное отношение к окружающей среде и природе, любовь к Родине и семье, уважение к национальным обычаям и традициям. В формировании национального самосознания подростков и молодежи большую роль играют сведения, предоставляемые им об исторических личностях, мыслителях и учёных. Отмечается, что независимо от занимаемой позиции и должности национальное самосознание является присущим каждому человеку положительным нравственным качеством. Национальное самосознание включает в себя как внутренний характер человека, так и его отношение к людям и обществу.

***Ключевые слова:*** *глобализация, обычаи и традиции, национальное самосознание, духовность, летопись, ценности, патриотизм, гражданственность, здоровый образ жизни*

Dövlətimizin qarşıya qoyduğu ən mühüm istiqamətlərdən biri qloballaşma dövründə xalqımızın milli-mənəvi dəyərlərinin və adət-ənənələrinin qorunması olmuşdur. Hal-hazırda tariximiz dərindən öyrənilir və adət-ənənələrimiz, milli dəyərlərimiz yüksək səviyyədə qorunur. İnteqrasiya və qloballaşma prosesi getdiyi bir vaxtda insanlarımızın xoşbəxt gələcəyini təmin etmək məqsədi ilə mədəni, tarixi, irsi, etnik köklərə söykənən, yeniyetmə və gənclərimizin vətənpərvərlik tərbiyəsi və milli mənlik şüurunun formalaşdırılması istiqamətində güclü siyasət aparılır.

XXI əsrin reallıqları müstəqillik qazanan dövlətimizin və xalqımızın qarşısında mühüm vəzifələr qoymuşdur. Bu vəzifələrdən ən əsası yetişən gənc nəsillərdə vətənpərvərlik tərbiyəsinin və milli mənlik şüurunun formalaşdırılmasıdır. Eyni zamanda dövlətimiz gənc oğlan və qızlarımızın sosial-mədəni həyatın hər bir sahəsində fəal iştirak etməsi üçün şərait yaradılması missiyasını da yerinə yetirməkdədir. Hal-hazırda yeniyetmə və gənclərimizin özlərinə cəmiyyətdə yer tutması, vətənin müdafiəsinə hazır olması, əməksevərlik və vətəndaşlıq mövqeyinin formalaşdırılması cəmiyyətin bütün yaşlı nəslini düşündürür.

İnamla deyə bilərik ki, bu gün yeniyetmə və gənclərimiz tariximizi, adət və ənənələrimizi dərindən öyrənir, milli ruhda tərbiyə olunurlar. Təlimin prosesinin bütün mərhələlərində onlara xalqa, millətə məhəbbət hissləri aşılanır. Öz xalqının, millətinin dilini, mədəniyyətini, tarixini bilməyən şəxs milli mənlik şüurundan məhrumdur. Humanist ideyalar təbliğ edən təhsil sistemimizdə vətəndaşlıq tərbiyəsi, insan hüquq və azadlıqlarına hörmət, ətraf mühitə, təbiətə qayğılı münasibət, vətəninə, ailəsinə məhəbbət, milli adət və ənənələrimizə hörmət tərbiyə prosesinin əsasını təşkil edir (2, s.151-152).

Bildiyimiz kimi, tərbiyə ailədən başlayır və məktəbəqədər müəssisələrdə uğurla davam etdirilir. Uşaq bağçaları körpələrin və uşaqların gələcək inkişafında mühüm rol oynayır. Bu sahədə dövlətimiz mühüm qərarlar qəbul etmiş və fiziki kamilliyi, əxlaqi saflığı, mənəvi zənginliyi özündə birləşdirən yeni insan tərbiyəsini bu qanunla təsbit etmişdir. Odur ki, bu qanun fiziki cəhətdən sağlam nəsil tərbiyə edilməsi, onlarda vətənpərvərlik tərbiyəsi və milli mənlik şüurunun formalaşdırılması işini məktəbəqədər tərbiyə müəssisələrin qarşısında mühüm tələb kimi qoymuşdur.

Təcrübəli pedaqoqların gəldiyi nəticələr onu göstərir ki, bağçalarda, ümumtəhsil müəssisələrində milli qəhrəmanlarımıza həsr olunmuş tədbirlər, görüşlər uşaqların elmi biliklərinin təkmilləşdirilməsində, mənəvi-əxlaqi keyfiyyətlərin formalaşdırılmasında, vətənə məhəbbət hisslərinin aşılanmasında əvəzsiz rol oynayır. Proqram çərçivəsində şagirdlərin tarixi muzeylərə, Şəhidlər xiyabanına, Qənimətlər parkına, 26 fevral şəhidlərinin xatirəsinə inşa edilmiş tarixi yerlərə ekskursiyaların təşkili də bu baxımdan böyük əhəmiyyətə malikdir.

Uşaqların tərbiyəsinin ailədən başladığını qeyd edən mütəxəssislər bildirirlər ki, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi uşaq anadan olan gündən aşılanmalıdır. Vətəndaşlıq və vətənpərvərlik yeniyetmə və gənclərin əxlaqi-etik, sosial-psixoloji və pedaqoji əqidəsinə çevrilməlidir. Doğma yurduna, dininə, dilinə məhəbbət hər bir insanın öz evindən, ailəsindən başlayır və bu məhəbbətin dayaqları sağlam olur.

Vətənpərvərlik insanın öz hisslərini tərbiyə etməsindən başlayır. Öz məzmununa görə vətənpərvərlik çoxşaxəlidir və bunu adi sözlərlə ifadə etmək qeyri-mümkündür. Elmi biliklərə yiyələndikcə, dünyanı dərk etdikcə, insanları tanıdıqca bu hisslər formalaşır və getdikcə möhkəmlənir.

İnsanlarda milli mənlik şüuru təsadüfdən yaranmır, onlarda bu hisslər ən kiçik yaşlarından formalaşır və aləmi dərk etdikcə möhkəmlə-

nir. Öz xalqının, millətinin malik olduğu müsbət keyfiyyətləri özündə birləşdirməklə insan milli şüura malik ola bilər. Milli mənlik şüuru insan duyğularının və hisslərinin məcmusudur. Burada vicdan da mühüm rol oynayır. Hər bir vicdanlı insan vətənini, torpağını sevməli, onun yeraltı, yerüstü sərvətlərini qorumağı özünün vətəndaşlıq borcu hesab etməlidir. Dədə Qorqudun dediyi kimi, torpağı qorumadınsa onu becərməyinə dəyməz, becərmədinsə onu qorumağa dəyməz. Yeniyetmə və gənclərin milli mənlik şüurunun formalaşmasında tarixi şəxsiyyətlər, mütəfəkkirlər, bilim adamları haqqında onlara verilən məlumatlar çox güclü rol oynayır.

Qeyd edək ki, tutduğu mövqeyindən, vəzifəsindən asılı olmayaraq milli mənlik şüuru hər insana xas olan müsbət əxlaqi keyfiyyətdir. Milli mənlik şüuru həm insanın daxili xarakterini, həm adamlara, həm də cəmiyyətə olan münasibətini özündə ehtiva edir.

Azərbaycanın xalq şairi B. Vahabzadə yazmış olduğu "Vicdan, namus, ləyaqət" adlı məqaləsində qeyd edir ki, milli mənlik şüuru yalnız demokratiya və azadlıq şəraitində formalaşa bilər. İnsana xas olan üç sifət var, bunlar vicdan, namus və ləyaqətdir ki, birinci növbədə cəmiyyət tərəfindən qorunmalıdır. Daha sonra isə hər kəsdən umulmalıdır. Hər bir millət, hər bir xalq öz "mən"ini, vicdanını, milli mənlik şüurunu vətəninin, xalqının çətin vaxtlarında daha dərindən hiss edir, duyur.

Bu bir həqiqətdir ki, 2020-ci ilə qədər vətənimizin 20 faizdən çox ərazisi mənfur düşmənlər tərəfindən 30 il işğal altında saxlanıldı. Bir milyondan artıq soydaşımız qaçqın, köçkün həyatı yaşadılar. Əzəli-əbədi torpağımız olan gö zəl Qarabağımız yağıların ayaqları altında inlədi. Ürəyində, qəlbində milli-mənlik şüuru olan hər kəs Vətənin müdafiəsinə qalxdı. Qəhrəman Vətən oğulları öz qanları ilə Qarabağda tarix yazdılar. Artıq narahat ruhlar canını, qanını bu Vətənə qurban verən şəhidlərin sayəsində rahatlığa qovuşdular. Bu gün şəhidlərimizin ruhu baş verən hadisələri şüurlu dərk etməyə, vətənpərvər olmağa, düşmən qarşısında əyilməməyə çağırır. Mərhum şairimiz Məmməd Aslan iki misra ilə şəhidlərimizin sözlərini indiki gənclərə çatdırmışdır:

Vətən gözdür, biz kirpik,
Gözümüzün keşiyini çəkirik.

Bəli, bu gün Vətənimizi kirpiyimiz gözümüzü qoruduğu kimi qorumalıyıq. Necə ki, şəhidlərimiz, qazilərimiz vətəni gözləri kimi qorudular. Məlumdur ki, mənəviyyatı olmayan insanlar milli mənlik şüurundan məhrumdurlar. Belə insanlar isə heç vaxt vətənpərvər ola bilməz. Xalqımızın tarixində, ürəyində özlərinə məxsus iz qoyan məşhurlarımızı dünyada tanıdan və özündən sonrakı nəsillərə nümunə edən səbəb onların milli mənlik şüuruna, müqəddəs amallara və mənəviyyata sahib olmalarıdır. Əgər dahi şairimiz N. Gəncəvi xalqını, vətənini sevməsəydi ölməz əsərlər yaza bilərdimi?

Vətənini, insanları sevməsəydi Məmməd Araz özünü vətən daşı adlandırardımı? Onun ölməz misraları onun milli mənlik şüurunun bariz nümunəsi idi: "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" deyirdi Məmməd Araz. Yaxud, "Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim" misraları da Məmməd Araz şerinin ana xəttidir. Biz gənclərimizi bu ideallarla böyütməliyik. Ümummilli Liderimiz H. Əliyev yeniyetmə və gənclərə qayğı göstərmiş və onların istedadını, vətənpərvərliyini qiymətləndirmişdir.

Uzaqgörən liderimiz Vətənin gələcəyini onlara tapşırmaqla hiss etmişdir ki, Azərbaycanın nicat yolu bu gənclərlə bağlıdır. Hətta gənclərlə görüşündə o belə fikir söyləmişdir: "bizim gənclərimiz tariximizi, dilimizi, keçmişimizi, milli adət-ənənələrimizi yaxşı öyrənməlidir." Bütün bunları bilməyən gənc heç vaxt vətənpərvər ola bilməz. Vətənpərvərlik müsbət əxlaqi dəyərdir və hər bir gəncimiz vətənpərvər olmalıdır. Vətənpərvərlik adi söz deyil və elə-belə deyilmir. Vətənpərvərlik-vətənə sadiqlik, vətəni sevmək, millətinə, xalqına bağlılıq deməkdir. Hələ 1996-ci il fevral ayının 2-də Gənclərin birinci forumundakı tarixi nitqində Heydər Əliyev yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsini yüksək qiymətləndirərək demişdir: "Vətənə sadiq olmaq, vətənə bağlı olmaq və vətəni sevmək lazımdır. Bütün gənclər müstəqil Azərbaycanın gələcəyini təmin etmək üçün öncə vətənini, ölkəsini, torpağını sevməlidir. Millətini, xalqını, dilini, dinini və milli adət-ənənələrini sevməlidir. Bütün bunları sevməyən, özü üçün mənəvi əsas bilməyən insan heç vaxt həyatda özünə yer tapa bilməz" (9. s.116-117).

Sadəcə gedib hərbidə qulluq etmək də deyil vətənpərvərlik. Vətən onun üçün qurban get-

məyə hazır olanlar üçün Vətəndir. Vətən belə qəhrəmanlara oğul deyib bağrına basır. Mübarizdirr, Cəbrayıldı, Muxtardır və neçə-neçə şəhid və qazilərimizdir vətən oğulları. Biz bu gün də, sabah da bu igidlərimizlə fəxr edəcəyik. Neçə-neçə əsrlər ötsə də, nəsillər təzələnsə də tarix onları unutmayacaq. Atalarımızın gözəl bir kəlamı var ki, indiki dövrümüzdə çox aktualdır: "İgid ölər, adı qalar". Bu igidlər Vətən üçün canlarından keçdilər, şəhidlik zirvəsinə yüksəldilər. Ancaq qanlarıyla Azərbaycanın tarixini yazdılar. İndi onlar bizim mərdlik məktəbimiz, qeyrət simvolumuzdur. Azərbaycan xalqının tarixi çox qədimdir və bu xalq at belində döyüşlərdə bərkiyib.

Ata-babalarından ibrət götürüb, onların cəsurluq, mərdlik, qəhrəmanlıq məktəbini keçiblər. Torpağı öz qanlarıyla suvarıblar, amma məğlub olmayıblar.  Bu gün xalqımızın tarixi salnaməsini vərəqləsək oradan Babəkin, Koroğlunun, Cavanşirin, Cavad xanın, Şah İsmayıl Xətainin hayqırtısını eşidərik. Qadınlarımız Tomirisin, Nüşabənin, Burlaxatunun varisləridir. Milli mənlik şüuru bu insanların sayəsində indiki gənclərimizdə getdikcə daha sürətlə formalaşır. Azərbaycan gəncliyi dərk edir ki, qəhrəmanlıq təkcə döyüş meydanında göstərilmir. Azərbaycanın bayrağı harada ucalara qaldırılırsa ora döyüş meydanıdır. Biz belə döyüşçülərə misal olaraq idmançı oğlan və qızlarımızı göstərə bilərik ki, üç rəngli bayrağımızı dünyanın bütün ölkələrində şərəflə ucalara qaldırırlar.

Biz bu gün belə gənclərimizlə qürur duyuruq. Onu da qeyd etməliyik ki, böyüyən gənc nəslin sağlamlığının qorunmasında, vətənpərvərlik hissinin aşılanmasında, hər an vətəninin müdafiəsinə hazır olan cəsur qəhrəmanlar kimi yetişmələrində idmanın çox böyük rolu vardır.

Hal-hazırda idmanı daha da inkişaf etdirmək üçün ölkəmizdə çox mühüm addımlar atılır. Hər rayonda böyük idman kompleksi tikilib gənclərin istifadəsinə verilir. Bu möhtəşəm işlərin memarı Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin sədri, Ali Baş Komandan cənab İlham Əliyev cənablarıdır. Onun apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanda idman yarışları təşkil edilir, gənclərimiz öz məharətlərini göstərir, bütün dünya artıq bizi tanıyır və hər sahədə bizimlə hesablaşır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan gəncliyinə böyük ümid bəslədiyini və bədən tərbiyəsinin onların vətənpərvərlik tərbiyəsində böyük rol oynadığını qeyd edir.  Dünya və Avropa çempionatlarında, Olimpiya oyunlarında yüksək nəticə göstərən, vətənə medallarla dönən idmançılarımız öncə dövlət başçımız tərəfindən qəbul edilir və onların uğurları qiymətləndiri

Fikrimizcə milli mənlik şüuru cəmiyyətin uğur qazanmasına stimul verir. Əksinə, keçmişə, tarixə, milli adət-ənənələrə inamı itirmək isə sivilizasiyanı tənəzzülə aparır. Milli mənlik şüuru bəşəriyyətin tərəqqisinin, elm və texnikanın, idman və iqtisadiyyatın inkişafına təkan verir. Insanları vətənpərvərlik hissi birləşdirir, mübariz olmağa səsləyir, onların vətəndaş kimi formalaşmasına təsir edir. Yeniyetmə və gənclərin vətənpərvərlik hisslərinin və milli mənlik şüurunun formalaşmasında öz kökünə bağlı olan meyarlar, emosional meyarlar və fəaliyyət meyarları mühüm rol oynayır.

Aparılmış müşahidələr onu göstərir ki, yeniyetmə və gənclərin vətənpərvər kimi tərbiyə olunmasında vətəndaşlıq mövqeyinin formalaşması əsas amildir. Burada ən əsas məqam bu gənclərin bir-biri ilə olan münasibətlərinə, əxlaqi dəyərlərin formalaşmasına diqqətin artırılmasıdır (8, s. 362-363).  Onu deyə bilərik ki, hal-hazırda milli mədəniyyətimizə, adət-ənənələrimizə, ana dilimizin qorunmasına, vətən qarşısında öz borcunu verməyə, vətənə, torpağa məhəbbətə və sağlam həyat tərzinin formalaşdırılmasına diqqət və qayğı yüksək səviyyədədir.

Bu gün hər bir ailə, hər bir valideyn öz övladının gələcəyi üçün məsuliyyət daşıyır. Ona görə ki, qayğısız yaşayan yeniyetmə və gənclərimiz nə bu gün, nə də sabah dövlətinin, Vətəninin müqəddəratına laqeyd münasibət bəsləməsinlər. Çünki vətənin gələcəyi onlara əmanətdir. Onlar vətəndaşı olduqları dövlətin, üstündə yaşadıqları torpağın mənafeyini canları, qanları bahasına qorumalıdırlar.  Sonda qeyd edək ki, yeniyetmə və gənclərimizdə sağlam həyat tərzi, onlarda milli mənlik şüurunun formalaşdırılması, vətənpərvərlik hissinin tərbiyə edilməsi hamının vicdan borcudur.

**Nəticə.** Son olaraq onu deyə bilərik ki, hal-hazırda milli mədəniyyətimizə, adət-ənənələrimizə, ana dilimizin qorunmasına, vətən qarşısında öz borcunu verməyə, vətənə, torpağa

məhəbbətə və sağlam həyat tərzinin formalaşdırılmasına diqqət və qayğı yüksək səviyyədədir.

Tutduğu mövqeyindən, vəzifəsindən asılı olmayaraq milli mənlik şüuru hər insana xas olan müsbət əxlaqi keyfiyyətdir. Milli mənlik şüuru həm insanın daxili xarakterini, həm adamlara, həm də cəmiyyətə olan münasibətini özündə ehtiva edir.

**Problemin aktuallığı.** Milli mənlik şüuru bəşəriyyətin tərəqqisinin, elm və texnikanın, idman və iqtisadiyyatın inkişafına təkan verir. İnsanları vətənpərvərlik hissi birləşdirir, mübariz olmağa səsləyir, onların vətəndaş kimi formalaşmasına təsir edir. Problem bu cəhətdən aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Milli mənlik şüuru bəşəriyyətin tərəqqisinin, elm və texnikanın, idman və iqtisadiyyatın inkişafına təkan verir. İnsanları vətənpərvərlik hissi birləşdirir, mübariz olmağa səsləyir, onların vətəndaş kimi formalaşmasına təsir edir. Milli mənlik şüuru cəmiyyətin uğur qazanmasına stimul verir.

**Problemin praktik əhəmiyyəti**. Hər bir millət, hər bir xalq öz "mən"ini, vicdanını, milli mənlik şüurunu vətəninin, xalqının çətin vaxtlarında daha dərindən hiss edir, duyur. Odur ki, vətəndaşı olduqları dövlətin, üstündə yaşadıqları torpağın mənafeyini canları, qanları bahasına qorumalıdırlar.

## Ədəbiyyat


1. Abbasov, A.N. Milli əxlaq və ailə etikası / A.N. Abbasov.–Bakı: Mütərcim, -2008. –335 s.
2. Kazımov, N.M. Milli pedaqogika yollarında / N.M. Kazımov. –Bakı: Ağrıdağ, –2004, –248 s.
3. Talıbov, Y.R. Gənclərin milli-mənəvi tərbiyəsi problemi / Y.R. Talıbov, F.B. Sadıqov, S.M. Quliyev. –Bakı: Ünsiyyət, –1999.
4. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: Z. Bünyadov, V. Məmmədəliyev) //–Bakı: Azərnəşr, –1991.
5. Hajiyeva, LQ (2019). Student-centered learninq and teashers thinking system. Modern Educational Research, 2, 33-41.
6. Plato /The Symposium./ Penquin Classics.2003. –144 p.
7. Eco, U./On Beauty:A History of a Western Idea /–London: Secker@Warburg, –2004.–438
8. Азадалиева Ш.М. (2015) Основные направления диверсификации и развития высшего педагогического образования в Азербайджане (1921-1991 гг.) // Annales – Analiza Istrske in Mediteranske Študije. Series Historia et Sociologia. – Koper (Slovenia), 2015. – S. 359-368. (Web of Science)
9. Azadaliyeva Sh.M. (2023) The role of Heydar Aliyev in the development of education in Azerbaijan // Proceedings of the 4th International Conference on Humanities and Social Sciences (ICSHRS). – Dubai, April 14-16,– P. 115-120
10. Rustamov F. A (2025) Comprehensive Analysis of Family Pedagogy: Theoretical Foundations, Sociocultural Dynamics, Legal Frameworks, and Modern Strategies for Organizing Educational and Upbringing Processes in Contemporary Families. https://imcra-az.org/uploads/public_files/2025-11/8898581212.pdf


**Redaksiyaya daxil olub:** 08.04.2026